# Şəhidlərimizə sevgi sətirləri




**Füzuli rayonunun Qaraxanbəyli kəndindən keçən yolun kənarında ucaldılan, üzərində "Vətən uğrunda canlarından keçən qəhrəmanların şəhid olduğu ilk yerlərdən biri" yazılan bu qaya parçası kimliyimizdən xəbər verir, bu torpaqların əzəli və əbədi sakini olduğumuzu təsdiqləyir.**

Bu daş abidə Vətən müharibəsinin ilk günlərində igidlik, şücaət nümayiş etdirən şəhidlərimizin şəhadətə ucaldıqları, qan tökdükləri Qarabağın müqəddəs məkanlarından biridir.

Bu qaya-xatirə "Qisasın qiyamətə qalmayacağı" inamının təsdiqləndiyi yaddaşdır.

Bu daş kitabə düşmənin işğal altında saxladığı əzəli torpaqlarımızın azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpasına doğru gedən yolun başlanğıcıdır.

Qobustan, Gəmiqaya daş yazıları xalqımızın uzaq tarixinin izlərini qoruyub saxladığı kimi, bu qaya parçası da qəhrəman şəhidlərimizin "öldü var, döndü yox" nidası ilə Böyük Zəfər yürüşündə haqq mübarizəsində ilk addımlarını atdıqları müqəddəs yurd yerinin bir parçasıdır.

* * *

Bu dilsiz daş ağır qaya parçası indiki yerə gətirilənədək, savaş zamanı ərazinin hansısa nöqtəsində olub və orada şəhid igidlərimizin dünya hərb tarixinə həkk olunan misilsiz döyüş qabiliyyətinə şahidlik edib. İndisə şəhid igidlərimizin şərəfinə xalqımızın, bu yoldan keçən hər kəsin ehtiram ünvanına çevrilib.

* * *

Uzun illik işğal zamanı bu daş salnamənin lap yaxınlığında düşmən səngəri yerləşib, işğalçı burada müdafiə xətləri qurub. Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən savaşında bu maneəni, qəsbkarın keçilməz saydığı bu istehkamı ölümitimdən qorxmayaraq yarıb, öz canını fəda edərək, üçrəngli bayrağımızın Şuşada və tapdaq altında olan digər bütün torpaqlarda dalğalanması, ləyaqətimizin, ədalətin bərpası, həmçinin xalqımızın doğma od-ocaqlarına qayıtması üçün yol açıb.

... İndi ucaldılan bu abidənin yerləşdiyi yolun yaxınlığından bir müddət əvvəl keçib Şuşaya gedəndə, bu yolun sağ-soluna tamaşa edəndə, erməni faşizminin ağrılı izlərini görəndə şəhidlərimizin Qarabağ çöllərində qalib əsgər, qalib zabit kimi ruhunun azad, bəxtiyar dolaşdığını duymuşam, bu yolun başdan-başa şəhidlərimizin daş kitabəsinə çevrildiyini hiss etmişəm, onların bu torpaqlara azadlıq gətirmələri, bizi doğma Yurdun–Azərbaycanın bu əsrarəngiz guşəsinin hər daş-qayası ilə yenidən qovuşdurmaları ilə özləri də Vətən daşına döndüklərini, ölkənin əbədiləşən, ölməzləşən vətəndaşı adını qazandıqlarını bir daha yəqinləşdirmişəm.

* * *

BMT Təhlükəsizlik Şurasının qəsb edilən torpaqların qaytarılmasını nəzərdə tutan qətnamələrinin icrası üçün "çalışan" erməni havadarları, Minsk qrupunun həmsədr "turistləri", "sülh yaradıcıları" işğal illərində indiki bu abidənin yanından keçib Xankəndini, İrəvanı su yoluna döndərəndə düşmənin barbarlığını, dəhşətli dağıntılarını sanki görmürdülər. Dövlətimizin başçısının vurğuladığı kimi, bu yoldan "vəhşi qəbilənin ötdüyünün" fərqinə varmır, işğalçını öz adı ilə çağırmır, əsl həqiqətləri dilə gətirmək istəmir, qəsbkarla aparılan danışıqlarda ədalətli mövqe ortaya qoymurdular.

Amma onlar nəyin, nə vaxt, necə gerçəkləşdiriləcəyini yaxşı bilən ölkə rəhbərinin bir gün Azərbaycan Ordusuna ermənilərin saysız-hesabsız təxribatlarının birində ədalət savaşına başlamaq əmri verəcəyini, indi bu qaya-abidə ilə xatirələri əbədiləşdirilən şəhid igid oğullarımızın şücaəti, qəhrəmanlığı ilə şəhər və kəndlərimizi yerlə bir edən, yurdu xarabalığa çevirən caniləri cəzalandıracaqlarını belə ağıllarına gətirmirdilər.

* * *

Üç min nəfər Vətən oğlu "yeni ərazilər uğrunda yeni müharibə" istəyilə alışıb-yanan düşmənə 44 gün ərzində kimin kim olduğunu anlatdı.

O üç min nəfər Xocalı soyqırımının, Tərtər, Gəncə günahsızlarının, ömürləri yarımçıq qırılan, ümidləri, diləkləri şüşə kimi çiliklənən kövrək körpələrin intiqamını döyüşdə aldı, qisası qiyamətə saxlamadı.

Erməni silahlılarının azğın, qəddar hərəkətləri, hərbi cinayətləri o üç min nəfər şəhidin mübarizə əzmini qıra bilmədi. Erməni vəhşiliyinə baxmayaraq, o üç min nəfər şəhid öz iradəsindən dönmədi, geri çəkilmədi, dövlətin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq, dəyanət nümayiş etdirdi, torpaqlarımızı düşməndən təmizlədi.

* * *

Bu qaya yazısını bundan sonra heç kim pozmağa, heç kim silməyə cəsarət etməyəcək...

Bu daş salnaməsi Qarabağın Azərbaycanın müqəddəs məkan möhürü kimi hər zaman yaşayacaq...

Bu qaya-daş abidə dil açıb bu yoldan ötənləri ayaq saxlamağa, buradakı yazını oxumağa, keçmişimizi anmağa, erməni faşizminin əməllərini heç vədə unutmamağa çağıracaq...

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**